

# «Dövlət rüsumu haqqında» Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə» Azərbaycan Respublikasının 2007-ci il 30 noyabr tarixli, 489-IIIQD nömrəli qanununun tətbiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

«Dövlət rüsumu haqqında» Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə» Azərbaycan Respublikasının 2007-ci il 30 noyabr tarixli, 489-IIIQD nömrəli qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

1.1. qüvvədə olan qanunvericilik aktlarının «Dövlət rüsumu haqqında» Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə» Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi və yerli icra hakimiyyəti orqanları tərəfindən hüquqi və fiziki şəxslərə göstərdikləri xidmətlərə və hüquqi hərəkətlərə görə «Dövlət rüsumu haqqında» Azərbaycan Respublikasının Qanunu və digər qanunlarla müəyyən edilməmiş ödənişlərin ləğv edilməsini təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. «Dövlət rüsumu haqqında» Azərbaycan Respublikası Qanununun 1-ci maddəsinin icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 28 sentyabr tarixli, 178 nömrəli qərarı ilə təsdiq edilmiş «Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı»ndan dövlət orqanları tərəfindən göstərilən xidmətlərin çıxarılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

1.5. öz səlahiyyətləri daxilində «Dövlət rüsumu haqqında» Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə» Azərbaycan Respublikasının Qanunundan irəli gələn digər məsələləri həll etsin.

2. Mərkəzi və yerli icra hakimiyyəti orqanlarına tapşırılsın ki, «Dövlət rüsumu haqqında» Azərbaycan Respublikası Qanununun 1.2-ci maddəsinin icrasını təmin etmək məqsədi ilə hüquqi və fiziki şəxslərə göstərdikləri xidmətlərə və hüquqi hərəkətlərə görə qanunla müəyyən edilməmiş ödənişlərin tutulmasını dayandıraraq, bu barədə 15 gün müddətində Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versinlər.

3. Müəyyən edilsin ki:

3.1. «Dövlət rüsumu haqqında» Azərbaycan Respublikası Qanununun 17.8-ci maddəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

3.2. həmin qanunun 18.65.3-cü maddəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanları»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi öz səlahiyyətləri daxilində həyata keçirirlər.

4. Bu fərman dərc edildiyi gündən qüvvəyə minir.

***Azərbaycan Respublikasının Prezidenti***

***İlham ƏLİYEV***

***Bakı şəhəri, 19 dekabr 2007-ci il***

***№ 683***